Millətə sevdalı Sabir,

yaxud «Sabirin milli intibah idealı» kitabı

(Əvvəli ötən sayımızda)

Bu mülahizədə ədəbiyyatın ictimai amal uğrunda mübarizə məqsədi daşıması kimi düzgün elmi qənaət əks olunmuşdur. Səhhət Sabir şeirində ictimai amal uğrunda mübarizənin başlıca məqsəd olduğunu, həm də bu məqsəd uğrunda mübarizənin dönməzliyini və ardıcıllığını da düzgün müşahidə etmişdir: *«Sabir əfəndi millətdən ötrü çalışırdı. O, aşiq idi. Ondan gördüyü tən və ləndən, təkfir və təhqirlərdən, yağış kimi üstünə yağan töhmət və nifrətlərdən əsla geri getməyib öz məsləkində kəmali-səbatiəzmlə davam etdi və sevgili millətinə xidmətdən bir an qafil olmadı»* ***(Abbas Səhhət. Sabir. M.Məmmədov. Azərbaycan ədəbi tənqidi. Müntəxəbat. Bakı, «Tural - Ə» NPM, 2002 (səh.240)).*** *A.Səhhətin zamanında satira, ictimai satira anlayışları yox idi. Lakin o, Sabir şeirinin ictimai məna daşıdığını, ictimai satira səviyyəsinə yüksəldiyini görə bilmişdi»* **(səh.23,24,25).** Burada yüz ilin o üzündə qalmış dünyadan - tarixdən söhbət getmir. Müasir zamanı bu təhlillərin üst qatından da görmək olar. Salamoğlu A.Səhhətin *«Sabir əfəndi millətdən ötrü çalışırdı»* hökmünü təsadüfi xatırlatmır. Yazının ümumi ruhu təlqin edir ki, hər kəs millətdən ömrü çalışmağın şərəfini duymalı, millətin varlığını qorumaq yolunda hər cür əzabın əbədi yaşarılıq iksiri olduğunu bilməlidir.

Təyyar Salamoğlu *«M.Ə.Sabir yaradıcılığı milli ədəbi tənqid müstəvisində»* adlı məqaləsində F.Köçərlinin tənqidi görüşlərinə də xüsusi yer ayırır. Bu sahəni araşdıran akademik K.Talıbzadənin tədqiqləri müstəvisində Firidun bəyin tənqid yaradıcılığı yoluna nəzər salır, akademikin qənaətlərindən doğulan mübahisəli məqamlara aydınlıq gətirməyə çalışır. Məqalənin sonuna yaxın Y.Qarayevin bir tezisini xatırladır: *«Tənqidi realizmdə «tənqidilik» keyfiyyətinin digər spesifik cəhəti isə odur ki, o, əvvələn, kəmiyyətə (ayrı-ayrı qüsurlara) qarşı çevrilmir, keyfiyyətə (ayrı-ayrı qüsurları doğuran vahid mahiyyətə, ictimai əsasın özünə) qarşı çevrilir»* **(səh.32).** Burada bizim diqqətimizi çəkən əsas amil cəmiyyətdə qüsurları doğuran *«ictimai əsas»*a münasibətdir.

Tənqidin missiyası, tənqidçinin istəyi cəmiyyəti sağlam görməkdir. Professor Təyyar Salaoğlu ilə yüz ilin o üzündəki sələflərini birləşdirən əsas fikir körpüsü də *«ictimai əsas»*dır.

Salamoğlu F.B.Köçərlinin ciddi elmi nəzəri biliyə sahib olduğunu onun yaradıcılığını müşahidə ilə əsaslandırır. Bu zaman milliyyətçiliyə, milli şüuru oyandırmağa xidmət edən bir tezisi sələfindən əxz edir: *«F.Köçərlinin Qoqolun pərdəni «zərifanə qalxızıb, altında olan əcayibat və qəraibata nazikanə gülməsi» kimi müəyyənləşdirdiyi estetik keyfiyyət tənqidi realizmdə tendensiyalılığın gizli mahiyyət daşımasını açıqlayır»* **(səh.33).** Ya Sabirin, ya da Mirzə Cəlil və Qoqolun pərdəni *«qalxızmaqla»* göstərdikləri cəmiyyətin iç üzüdür. Ancaq bu fikir mücahidlərinin fədakarlığını, onların mübarizələrinin mahiyyətinə milliyyətçilik **(azərbaycançılıq)** yönümündə şərh vermək tarixi və milli gerçəklikdən uzaqlaşmaqda olan cəmiyyətə vətəndaşlıq xidmətidir. Və gələcəkdə tədqiqatın həyati əhəmiyyəti kimi xarakterizə olunacaq keyfiyyətidir.

Əslində, professor *«yenidən oxu və yarat»* konsepti ilə milliyyətçiliyin üstünü örtməkdə olan ifrat tolerantlıq pərdəsini ziyalı ləyaqəti ilə *«qalxızır»*. Milləti özünü görməyə çağırır. Yoxsa tədqiqatın praktik - həyati əhəmiyyətindən danışmaq çətin olardı.

Akademik İsa Həbibbəyli 2006-cı ildə yazdığı *«Mirzə Ələkbər Sabirimiz»* məqaləsində Sabir yaradıcılığının əsasında Sabir dövrünün mənzərəsini özünün təbii rəngləri ilə təsvir edir: *«M.Ə.Sabirin yaradıcılığında cəhalət, mövhumat və fanatizmə qarşı kəskin mübarizə nəticə etibarilə köhnə həyat tərzindən və gerilikdən xilas olmaq, yeniləşməyə meyl etmək qayəsini izləyir. Cahil mollaların, mənəvi əsarətin əsas baiskarları olan yalançı din xadimlərinin tənqidi baxımından Sabir mollanəsrəddinçi şairlərin hamısından irəlidədir. Şair savadsız, köhnəpərəst, şəxsi mənafelərini hər şeydən üstün tutan qondarma din təmsilçilərini sadəcə tənqid etməklə kifayətlənmir, sona qədər ifşa etmək üçün onların iç üzünü, mənfur niyyətilərini, yaramaz simasını böyük cəsarətlə açıb göstərir, xalqın düşməni olduqlarını açıq-aşkar bəyan edir. Sabir hətta xalqdan uzaq düşən belə üzdəniraq bəndələrin yeri gəldikcə yad ölkələrin maraqlarını həyata keçirən missionerlərlə də həmrəy ola biləcəklərini də yada salır».* **(İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı-2007. səh.116).** Burada *«Xalqın düşməni»* ifadəsi diqqəti çəkir. Doğrudur, sadalananların hamısı xalqın inkişafına əngəl olan qüvvələrdir, xalqın tərəqqisini ləngidən, *«öz qövmünün başına əngəl-kələf»* olanlardır. Şübhəsiz, akademik də onların hamısını ucdantutma xalqın düşməni kimi görmür. Necə ki, Sabir də onların hamısını ucdantutma xalqın düşməni bilmirdi. Onu da inkar edə bilmərik ki, belələrinin arasında Vətən xaini, milləti ifrat dini təmayüllərə qurban verməyə hazır olanlar da yox deyil. Ona görə də akademikin dolğun mənzərə yaratdığı məqalədə *«əsas konturları kifayət qədər aydın verilən mənzərə bu gündən çox fərqlidirmi?»* sualına birmənalı cavab mübahisə doğurardı. Ancaq günümüzlə bağlı real düşüncənin doğurduğu suallar da var: İfrat dini təriqətçilik, radikal, ekstermist dini qruplaşmalar **(bu fonda şahidi olduğumuz terror hadisələri, lokal dini idarəetmə cəhdləri və nəhayət, bugünkü Türkiyə hadisələri)** həmin mənzərədən görünmürmü? Demək, M.Ə.Sabir cəmiyyətimizin saflığı və sağlamlığı uğrunda mübarizədə ön cərgədə görünür. Çox güman ki, professor T.Salamoğlunu Sabiri qızıl kimi dövriyyəyə gətirməyə sövq edən həm də elə bu məsələlərdir. Tədqiqat professor Salamoğlunun təqdimində Sabirin dili ilə bizi ayıq olmağa çağırır.

Azərbaycançılığı qorumağın, onu inkişaf etdirməyin bir yolu da ayıq olmaqdır. Bəsirət gözü açıq olmayanın yolu yoxdur. Özləri də yola düşmüş daş kimi yolu gedənə əngəldir. Sabir isə hər sözündə çağırır: Vətənə gedirəm gəl, Millətə doğru gedirəm, gəl... Özü Vətənin və millətin içində olsa da...

* * *

Təyyar Salamoğlu Sabirəcən uzun bir yazı yolu keçib. Bizlərdə "yazı" həm də susuz "böyük çölə" deyirdilər. Həkəri-Bərgüşaddan keçəndən sonra Gorus - Xınzirək (Ermənistan) ərazisinə qədər uzanan düzün də adı Yazı (susuz böyük çöl) adlanırdı. Sarı Aşıqla bağlı bütün rəvayət və əhvalatlarda bu yerin - məkanın adı tez-tez çəkilir. Sovet ədəbitənqidinin Yazısı - birtərəfli yol (ədəbtənqid meydanı) onun tərəfindən birərbirər araşdırılıb. B.Çobanzadə, Əli Nazim, Mehdi Hüseyn, Məmməd Arif, Əziz Mirəhmədov, Kamal Talıbzadə, Yaşar Qarayev və qeyrilərinin ideologiya zəminindəki yaradıcılığı müstəqillik dövrünün məhək daşına çəkilib. Davam gətirməyən şüşə divar kimi çiliklənən, günəşin hərarətindən buz kimi əriyəni də var. Ancaq T.Salamoğlu nihilist inkarçı deyil, böyük sələflərinin dəyərli ideyalarını araşdırıb, ölməyən həqiqət kimi yaşayan fikir incilərini dövrün pasından, qara örtüyündən çıxara da bilir. Özü də hər hansı qəzəbli etirazdan, qərəzli qarşıdurmadan çəkinmədən...

Hərdən düşünürəm, insan tapınaqsız güclü (bu qədər) ola bilməzdi. T.Salamoğlunun tapınağı M.Ə.Sabirdir. Mirzə Fətəli Axundzadədir, Mirzə Cəlildir. Eləcə də Ə.Hüseynzadədir, Ə.Ağayevdir... "Molla Nəsrəddin"dir, "Füyuzat"dır. Bir sözlə, bölgüsüz millətdir.

MİLLƏTİ BÜTÖV GÖRMƏK İSTƏSƏN...

«M.Ə.Sabirin milli intibah idealı» kitabında ikinci məqalə, həm də kitabın adı ilə səsləşir: *«Sabirin milli intibah idealı* **(«ictimai yuxarılara» münasibət kontekstində)».** Müəllif yazıya M.Ə.Sabirin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamından bir parça epiqrafla başlayır*: «Mirzə Ələkbər Sabir çoxəsrlik poeziyamızın parlaq ənənələrini layiqincə yaşatmaqla bərabər, ədəbiyyatımızı keyfiyyətcə yeni mərhələyə yüksəldərək onu ictimai məfkurə baxımından daha da zənginləşdirən söz ustası kimi geniş şöhrət tapmışdır. «Molla Nəsrəddin» jurnalı ətrafında formalaşmış ədəbi cərəyanın aparıcı simalarından olan mütəfəkkir şairin yüksək istedadla yaratdığı əsərlərinin başlıca mövzusunu mənəvi saflığa, mədəni yüksəlişə və maarifləməyə çağırış təşkil etmişdir»* **(səh.36).** Əvvəla, onu qeyd etmək yerinə düşərdi ki, bu mətndə ifadə olunan qənaətlər təkcə rəsmi bir sənədin **(sərəncamın)** bir hissəsi deyil. Həm də dövlət başçısının Sabir haqqında özünün rəyi və düşüncəsidir. Demək, həm də dövlət səviyyəsində M.Ə.Sabirin davamlı etirafıdır. Dəyişən dünyada yaşayan Sabirə azad, müstəqil bir dövlətin qürurlu salamıdır.

Sabir millət uğrunda mübarizəyə başlayanda Azərbaycanda türk kökənli etnosun **(və dilin)** əsasında millətin formalaşma prosesi başa çatmışdı. Və elə bu başa çatma ilə də millətin başının üstündə fəlakət və qovğa qılıncları oynamaqda idi. Bütün sovet dövründə Azərbaycan türklərinə münasibət siyasi eksperimentlərlə müşayiət olunurdu. Çox sonralar Cənubi Azərbaycanda milli hökumətin lideri S.C.Pişəvəri 21 Azər hərəkatı dövründə yazacaqdı: *«Millətimiz qərinələr boyu təhəmmül etdiyi zülm, əsarət və hərc-mərcdən yorulmuşdur. İndi o da istəyir bütün millətlər kimi öz səadətini təmin etmək imkanına malik olsun. Bu arzu heç bir millətin düşmənliyi üzərində əsaslanmamışdır».* Tarix isə amansız bir seyrçiliklə yoluna davam etməkdədir. 20 Yanvar hadisələri, Sovet imperiyasından ayrılma uğrunda mübarizə, Qarabağ hadisələri, Şimaldan və Cənubdan təhdidlər... dünyaya siyasi varlığının sübutu kimi döyüşən və döyüşərək yaşayan Şimali Azərbaycanın milli varlığını daim parçalamaq və onu məhv etmək istəkləri hələ də səngimək bilmir. Bəzən gizli və bəzən aşkar cəhdlər önündə milləti yorulmamağa, birliyini qorumağa çağıran tarixi və milli mənəvi dəyərlər getdikcə daha çox əhəmiyyət kəsb edir.

Azərbaycanda kapitalizmin yeni fazada təkamülü millətin daha sürətli inkişafına təkan versə də əks qütbdən başqa təhlükəli meylləri də ortaya çıxarır. Sovet dövrünün yalançı və süni bərabərlik sistemi dağıldı. Bazar iqtisadiyyatı şəraitində birinin varlanması, digərinin kasıblığa düçar olması təbii prosesdir. İndi cəmiyyətdə yuxarı da var, aşağı da. Ancaq bu bölgü millətin parçalanmasına əsas ola bilməz. Bu aşağılar və yuxarılar Sabir dövründə də var idi. Və bu bölgü millət uğrunda savaşdan Sabirin diqqətini yayındırmırdı. Sovet dövründə isə bu bölgü işə yarayırdı. Ədəbiyyatın siyasətə meydan olduğu şəraitdə söz ideologiyaya xidmət etməyə məcbur idi.

Məsələni tənqidi realizmin istək və tələbləri baxımından şərh edən Təyyar Salamoğlu göstərir ki, *«Azərbaycan sovet ədəbiyyatşünaslığında milli tənqidi realizmin obrazlar aləmi tipoloji cəhətdən iki qrupda təsnif edilmişdir: «ictimai aşağılar» və «ictimai yuxarılar» (ifadələr Y.Qarayevindir - T.S.). Obrazların tipologiyasına uyğun olaraq tənqidi gülüş də mahiyyətcə iki növə ayrılmış, «ictimai aşağılar»a münasibətdə tənqidi gülüşün oyadıcı (başqa sözlə, tərbiyəedici), «ictimai yuxarılar»a münasibətdə isə onun ifşaedici (başqa sözlə, öldürücü, məhvedici) xarakteri və məzmunu önə çəkilmişdir. «İctmai aşağılar»a «xalq» adı verilmiş, onların yaşamaq, ictimai və milli şüurca tərbiyələnib inkişaf etmək, son nəticədə özünü dərk edərək vətəndaş kimi yetişmək haqqı təsbit edilmişdir. Sovet ədəbiyyatşünaslığı xalqın ancaq «ictmai aşağılar»dan ibarət olması fikrinin ictimai, estetik və elmi şüura yeridilməsi üçün uzun və məqsədyönlü bir yol keçmişdir»* **(səh.36-37).** Demək, *«xalq anlayışına sinfi məzmun verməyə»* çalışmaq, əslində, xalqın **(nəticədə millətin)** parçalanmasına, onun öz hüquqları, ümumən demokratiya uğrunda mübarizədən yayındırılması, gücdən salınması demək idi. Bu siyasi rejimi qorumağın çox tutarlı üsullarından biri idi. Və Salamoğlu da, bu siyasətin mənəvi simasını açır: *«1920-30-cu illər tənqidində və Azərbaycan ədəbiyyatşünaslığının sonrakı inkişaf mərhələlərində «Molla Nəsrəddin»çi sənətin «ictimai yuxarılar»a tənqidi, «ictimai aşağılar»a rəğbətli münasibəti öz estetik mənasından uzaqlaşdırılaraq sinfi ziddiyyətlərin inikası zəminində təfsir edilmiş, məhz bu mənada Mirzə Cəlil, Sabir sənətində proletar ədəbiyyatına «estetik dayaqlar» tapılmışdır. Realist sənət nümayəndələrinin milli oyanış, milli özünüdərk və vətəndaşlıq qayələrindən güc alan estetik konsepsiyalarına «sinfilik» donu geyindirilmişdir. Bütövlükdə Sabir və Mirzə Cəlil yaradıcılığını milli tənqidi realizmin zirvəsinə qaldıran estetik kamillik yox, aşağı təbəqələri müdafiə konteksti önə çəkilmişdir»* **(səh.38-39)**. Professor Salamoğlu buradaca Əli Nazimin bu gün mənasızlığı tam, aydın dərk edilən bir fikrini yada salır: *«Əgər Sabir bu gün sağ olsa idi, inqilabçı bir Azərbaycan şairi olacaq və Azərbaycan proletar ədəbiyyatının başında duracaqdı»* **(səh.39).** Professor bu fikrin yanlışlığını Sabirdən sonra yaşayan Mirzə Cəlillə bağlı fikirləri ilə sübut edir: "*Bu mülahizə yanlışdır. Sabir və Mirzə Cəlil XX əsr Azərbaycan ədəbiyyatında - tənqidi realizmində bir medalın iki üzü kimi idilər. Sabir sağ olmasa da, Mirzə Cəlil sağ idi və o, Azərbaycan proletar ədəbiyyatının və ya nəsrnin nəinki başında durmadı, heç onun sıra nəfəri də olmadı. Çünki proletar ədəbiyyatı Sabir və Mirzə Cəlil yaradıcılığına təkan verən milli və demokratik zəmindən, həyati əsasdan məhrum idi"* **(səh.39).**

(Davamı 9-cu səhifədə)

(Əvvəli 8-ci səhifədə)

Siyasi hakimiyyət milli-mənəvi hakimiyyətdən *"cin bismillahdan"* qorxan kimi qorxurdu. Onun təkbəşər mahiyyətə qulluq edən idealogiyası üçün millətdən danışmaq ideolojinin özündən imtina etmək demək idi. Akademik Kamal Talıbzadənin *"Tənqid və tənqidçilər"* **(1989)** kitabında sovet ədəbiyyatşünas-estetiki B.B.Qusevin belə bir fikrinə rast gəldim: *"... folklorda xalq öz estetik idealını təsdiq etməklə yanaşı, estetik tənqid vasitələrilə xalq kütlələrinin təsəvvüründəki həqiqət, xeyir, gözəllik, ülvilik və qəhərmanlığa zidd olan həyat hadisələrini rədd edir"* **(B.B.Qusev. "Estetika folklora", Leninqrad, "Nauka", 1967. səh.301).** Diqqət edilsə, zahirən etiraz doğuran heç nə görünməsə də, xalqın adından danışılır və bu "xalqın" kimliyi də görünür. Çünki *"xalq kütlələrinin"* təsəvvüründəki *"həqiqət"* anlayışı yalnız ictimai aşağıların təsəvvüründəki *"həqiqət"*dir. Sabir də **(elə Mirzə Cəlil və digər Molla Nəsrəddinçilər də)** xeyirə, gözəlliyə, ülviliyə, qəhrəmanlığa... zidd olan nə var idisə, bütün bunları tənqid edir, inkarlayır. Sabir istəyir ki, millət özünü tanıya bilsin. Əsas məsələ də elə bu tanımağın üzərindədir. Sovet hakimiyyəti millətin özünü tanımağını istəmirdi. Ona görə ki, hibrid *"sovet xalqı"*nı yaşatmaq istəyirdi: Sabir elə milli zəmindən, milli dəyərdən, milli kökdən məhrum sovet xalqının müdafiəçisi olan proletar *tabe tutulur. Sabir şeirinin «yeni məzmunlu xəlqiliyi və partiyalılığı»nın burada «fəhlə və kəndli sinfinin bilavasitə özü»nün danışması ilə müəyyənləşdirilməsi də bunu sübut edir. Yuxarıdakı mülahizədə «xalq»a aid edilən «yeninin mənəvi intibahı» da ancaq «ictimai aşağılar»ı nəzərdə tutur. «Köhnənin süqut və tənəzzül tarixçəsi ilə» isə «ictimai yuxarılar» hədəfə alınır»* **(səh.40-41).** Bu gün Təyyar Salamoğlunun konsepti başqadır. O, nə yuxarıları, nə aşağıları görür. Onun gördüyü bütövlükdə millətin özüdür. Ancaq sovet ədəbiyyatşünaslığı ümumxalq deyir və burada hətta formal olsa da, ancaq *«ictimai aşağılar»* başa düşülürdü. Əgər bu bölgü həqiqət idisə, elə sovet dövründə də partiya və məmur elitasının timsalında tam korrupsiyalaşmış yuxarılar da mövcud idi. Siyasi rejim bu cür görməni məqbul saymırdı. Tənqidçi yenidən sələfinin **(Y.Qarayevin)** maraqlı bir fikrinə müraciət edir: *«Fəhlənin burjuya, kəndlinin mülkədara meydan oxumağa başladığı bir dövrün hərtərəfli inikası bu poeziyanı ümumxalq intibahının inikası olan bir poeziya hesab etməyə bizə haqq verir»* **(səh.41).** Burada ustalıqla pərdələnən, zahirən cazibəli *«ümumxalq intibahının inikası»* ifadəsinin mahiyyətini diqqətlə çözən Salamoğlu *«Sabirin yaradıcılığını «ümumxalq intibahının inikası» kimi dəyərləndirmək onun ideya-estetik dəyərini azaldır. Və şairin həqiqi sənət idealının düzgün dərkinə mane olur»*, - deyir. Hərçənd ki, həmin ifadə sovet dönəmində alqışlanırdı. Onun alt qatına nüfuz etmək belə düşüncə yasağı idi. Vaxtilə bu *ziyanın ölümə məhkum edilməsi, «ictimai aşağılar»la «ictimai yuxarılar»ın qarşı-qarşıya gətirilib düşmən siniflər elan edilməsi milli birliyə mane olmaq siyasəti idi. Bu siyasət xalqın millət kimi formalaşmasının və deməli, öz milli varlığını dərk etməsinin qarşısını almağa yönəlmişdi»* **(səh.43-44).** Estetik düşüncənin ictimai şüuru qabaqlaması, əslində, milli özünüdərkin təsirindən qaynaqlanır. Salamoğlunun göstərdiyi kimi, bu proses millətin mövcudluğu, özünütəsdiq uğrunda mübarizəsinin motivi ilə bağlıdır. Milli birlik, milliyyətçilik, türklüyün dərki, türkçülüyün **(azərbaycançılığın)** ideologiyaya çevrilməsi, əslində, milli ruhun tələbindən doğulan bir proses idi. *«Füyuzat»*çılar da çıxış yolunu milli harmoniyada görürdü. Salamoğlunun qeyd etdiyi kimi *«xalqı millət kimi formalaşmaq imkanından məhrum etmək»* Sovet imperiyasının ömrünə xidmət edirdi. Füyuzatçılarla **(romantiklərlə)** Molla Nəsrəddinçilər **(tənqidi realistlər)** arasında doğru olaraq Çin səddi görməyən Təyyar Salamoğlu mübarizənin məğzində dayanan mahiyyəti bütün çılpaqlığı ilə verir: *«sovet ədəbiyyatşünaslığı hesab edir ki, «...fəhlə - Sabir poeziyasında artıq epizod və ünsür deyildi, «vətən» sözü ilə, «hürriyyət» sözü ilə yanaşı, «fəhlə» sözü də «Hophopnamə»də üç əsas mübtədadan biri idi»* **(Qarayev Y. Realizm: sənət və həqiqət. s.224).** Müasir elmi düşüncə bu fikri həqiqət kimi qəbul edə bilməz. Fikrimizcə, *«Hophopnamə»*nin *«əzəl mübtədası» «millət»* sözüdür. Y.Qarayevin müstəqillik dövründəki araşdırmalarında müəyyən mənada bu fikir təsdiq olunur. Tədqiqatçı *«Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər»* kitabında yazır: *«Əlbəttə, Sabirdə «millət» obrazı həm də yuxarıda bir-bir xatırlatdığımız satirik-sosial nüsxələrin cəmindən yaranır və əslində, bütövlükdə «Hophopnamə» də elə «Millətnamə»dir»* **(s.378).** *«Hophopnamə»*, doğrudan da, *«Millətnamə»*dir. Lakin Y.Qarayevin təfsirlərində bu anlayış öz həqiqi sosial məzmununa adekvat şəkildə yox, *«xalq»* anlayışının **(özü də ancaq «ictimai aşağılar»dan ibarət xalq anlayışının)** müstəqillik dövrünün düşüncəsinə uyğun olaraq *«millət»* anlayışı ilə mexaniki əvəzlənməsi şəklində işlənir. Y.Qarayev Sabirin *«millət»* anlayışını *«burjuaziya və proletariat, bəylər və kəndlilər, tacirlər və sənətkarlar»* **(Azərbaycan tarixi. s.613)** və başqa sosial təbəqələrin birliyindən ibarət bir toplum kimi təfsir etmir. 1920-30-cu illər tənqidi *«xalqa musavi hüquqlu bir gözlə»* baxmadığı kimi, müasir ədəbiyyatşünaslıq da «millət» məfhumunu müxtəlif sosial təbəqələrin bərabər hüquqlu birliyi kimi təsəvvür edə bilmir. *«Azərbaycan ədəbiyyatı: XIX-XX yüzillər»* kitabında da müxtəlif sosial zümrələri təmsil edən obrazlar müsbət və mənfi qəhrəmanlar bölgüsünə yerləşdirilərək, mahiyyətcə *«ictimai aşağılar»* və *«ictimai yuxarılar»* kontekstini yenidən önə çıxarır. Düşünürük ki, alimin Sabir satirasının sosial məzmununda *«fəhlənin, kəndlinin mənəvi-əxlaqi bir hərəkət səviyyəsində dövrün şüur intibahında kəsb etdiyi ilkin mütəşəkkillik»*dən söz açmasını, burjuaziyadan isə *«eyni bir ictimai ölüm və matəm mahnısı oxuyanların «vahid xoru» kimi yer almasını önə çəkməsi (Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. s.367-368) böyük şairin milli intibahı milli birlik şəklində təsəvvür etməsi həqiqətini yetərincə kölgədə qoyur»* **(səh.45-46).**

Təfsirdə polemik ruh o qədər güclüdür ki, tərəflər arasında qarşı-qarşıya gələn fikirlər o qədər aydındır ki, hətta cüzi müdaxiləyə belə lüzum görmürsən. O başqa məsələdir ki, tərəflərdən birinin ideoloji dayağı sökülmüş, digərinin fikir imkanları genişlənmişdir. Təyyar Salamoğlu çağdaş mühitin təmsilçisidir. Onun dayağı siyasi ideologiya deyil, mənəvi ideologiyadır. Bu ideologiya mənəvi istinadgahdır. Şübhəsiz, tənqidçi düzgün müşahidə edir ki, sələfi Y.Qarayev millət anlayışını «xalqı» əvəz edən ifadə kimi işlətməklə mexaniki dəyişikliyin gətirdiyi təskinliklə kifayətlənib.

Yaşar Qarayev dövrünün övladı idi. Qüdrətli mütəfəkkir kimi mövcud qəfəsin imkanları ilə hava ala bilirdi. O dünyadan köçəndə Azərbaycanın müstəqillik qatarı kifayət qədər yola rəvan ola bilmişdi. Və bunu Y.Qarayev də görürdü. Onun əsərləri üzərində apardığı redaktələr də bunu təsdiq edir. Ancaq o zaman hələ ki, sahibkarlar - pullular öz imkanlarını qədərincə göstərə bilmirdilər. Yeni inqilab dalğası, hadisələrin geriyə dönüşü təhlükəsi onları qorxudurdu. İndi isə yeni təməllər üzərində sahibkarlıq fəaliyyətini qura bilmiş yeni sahikarlar nəsli formalaşıb. Və cəmiyyətin siyasi rıçaqlarına da nəzarət etmək gücündədirlər. Məmur elitasının çox böyük qismi və demək, siyasi *«portfellərin»* çoxu, milli məclisin əksər kürsüləri onların nəzarətindədir. Oğurluq və korrupsiya ilə pul-yatırım sahibi olmuş qorxaq sahibkarların yerini ümumdünya biznes ənənələrini mənimsəmiş böyük biznesmenlər nəsli artıq vətən

yaxud «Sabirin milli intibah idealı» kitabı

ədəbiyyatının başında dura bilərdi? Bolşeviklər, partiya və partiyadaşlar, siyasi ideoloqlar toxunulmazlıq statusunda idilər. Mirzə Cəlil "Molla Nəsrəddin"in ruhunu qorumaq istəyirdi; Felyetonlarının birində deyir: *"...icrakomun başı xarab olub"*. Mirzə Cəlil rayonun və şəxsin adını çəkir. Mərkəzi hakimiyyət aparatı hay-küy qoparır. Mirzə Cəlildən təkzib tələb edirlər. Mirzə Cəlil təkzib verir: *"Mən səhv eləmişəm, hörmətli oxucular, gərək bağışlayasınız. Axı bu kişinin heç əvvəldən başı yox imiş,.. xarab da ola"*. Beləliklə, Molla Nəsrəddin kitabı qapanmalı olur. Necə ki, akademik T.Hacıyev demiş, Sabir ədəbi məktəbini dövr, tarixi şərait artıq bağlamışdı. T.Salamoğlu *"bir medalın iki üzü"* obrazından da bu tarixi şərait mexanizminin mahiyyətini açmaq üçün istifadə edir. Əlbəttə, professor T.Salamoğlunun *"örtülü bazar"*ı dağıtmağında, tənqidinin sərt və əqidəli ruhunda sələflərinə repressiv münasibət yoxdur. Əslində, tənqid elədiyi ədəbi irsin yaşarı fikir qığılcımlarını ehtiyatla, sönməyə qoymadan üfürə-üfürə qoruyub saxlayır, ocağa, alova çevirməyə çalışır.

«Yaşar Qarayev yazırdı: «Bu mənada «Xalq» obrazının olmadığı, xalqın iştirak etmədiyi şeir Sabirdə yoxdur. O, bəyi verəndə bəyin, burjuyu verəndə burjuyun, ruhanini verəndə ruhaninin dili ilə xalqdan söz açır. Yeninin mənəvi intibah tərcümeyi-halı burada həmişə köhnənin süqut və tənəzzül tarixçəsi ilə bir yerdədir» **(Qarayev Y. Realizm: sənət və həqiqət. s.221.)» (səh.40).** Professor nisbətən yaxın sələfinin düşüncəsinə diqqətlə yanaşır, əgər belə demək mümkünsə, onu elə dinləyir ki, nəzərdən heç nə yayınmasın. Yalnız bundan sonra cavab verir: *«Buradakı «xalq» anlayışının, başqa sözlə, Sabirin «xalq» obrazının məzmunu «ictimai aşağılar»a* qənaəti qəbul edən və indi qəbul etməyənlərin mübarizəsi artıq yeninin köhnəni **(inkişafa mane olan köhnəni)** inkardan başqa bir şey deyil. Təəssüf ki, be *«inkar»*ların bir çoxu mexaniki, əsaslandırılmamış xarakter daşıyır. Mühitə uyğunlaşmanın təsiri altında baş verir. Salamoğlu isə get-gedə daha sərrast fikir, duru düşüncə ilə oxucusunu qəti inama çağırır və onu özü ilə apara bilir: *«M.Ə.Sabirin poeziyası milli intibah uğrunda mübarizədən doğulmuşdur. «Sabir millətdən ötrü çalışırdı» (A.Səhhət). A.Səhhətin «xalq» yox, «millət» anlayışını önə çəkməsi təsadüf deyildi»* **(səh.42).** Sabir isə artıq milli özünüdərk mərhələsini bir fərd olaraq keçmişdi. Çünki onun mənsub olduğu etnos özü milli özünüdərk prosesini artıq yaşayırdı: *«Milli özünüdərk özünün bu və ya digər millətə mənsub olduğunu şüurlu olaraq anlamaqdır... Əslində, millətin bütün obyektiv əlamətləri milli özünüdərk kimi subyektiv əlamətlə tamamlandıqda millətin mövcudluğundan, onun fəaliyyətindən danışmaq olar»* **(İmanov H.Fəlsəfənin əsasları. Bakı. «Turan evi», 2007, səh.381.) (səh.43).** Sovet ideoloqları isə hər vəchlə milləti millət adından yayındırmağa, hibrid *«sovet xalqı»* ümumiliyində başını qatmağa çalışırdı. Salamoğlu siyasi rejimin iç üzünü açaraq ədəbiyyatın ağzını *«boza verən»* küləyin haradan əsdiyinə diqqəti yönəldir: *«Sovet rejimi ideoloqlarının antiburjuaziya siyasəti xalqı millət kimi formalaşdıracaq əsas dayaqlardan məhrum etməyə hesablanmışdı. Burjuaziya düşmən sinif elan edilirdi və bunun mənası təkcə sinfi antoqonizmdə, aşağı təbəqələrin mənafeyinin müdafiəsində axtarılmamalıdır. Cəmiyyətin istismar olunanlar və istismar edənlər təbəqələrinə bölünməsində öndə dayanan «ictmai aşağılar»ın mənafeyi deyildi. Burada ancaq siyasi rejimin mənafeyi əsas götürülürdü. Sovet rejimi yarandığı gündən antimilli xarakter daşıyırdı. Burjuakir təsdiq olunur. Tədqiqatçı *«Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər»* kitabında yazır: *«Əlbəttə, Sabirdə «millət» obrazı həm də yuxarıda bir-bir xatırlatdığımız satirik-sosial nüsxələrin cəmindən yaranır və əslində, bütövlükdə «Hophopnamə» də elə «Millətnamə»dir»* **(s.378).** *«Hophopnamə»*, doğrudan da, *«Millətnamə»*dir. Lakin Y.Qarayevin təfsirlərində bu anlayış öz həqiqi sosial məzmununa adekvat şəkildə yox, *«xalq»* anlayışının **(özü də ancaq «ictimai aşağılar»dan ibarət xalq anlayışının)** müstəqillik dövrünün düşüncəsinə uyğun olaraq *«millət»* anlayışı ilə mexaniki əvəzlənməsi şəklində işlənir. Y.Qarayev Sabirin *«millət»* anlayışını *«burjuaziya və proletariat, bəylər və kəndlilər, tacirlər və sənətkarlar»* **(Azərbaycan tarixi. s.613)** və başqa sosial təbəqələrin birliyindən ibarət bir toplum kimi təfsir etmir. 1920-30-cu illər tənqidi *«xalqa musavi hüquqlu bir gözlə»* baxmadığı kimi, müasir ədəbiyyatşünaslıq da «millət» məfhumunu müxtəlif sosial təbəqələrin bərabər hüquqlu birliyi kimi təsəvvür edə bilmir. *«Azərbaycan ədəbiyyatı: XIX-XX yüzillər»* kitabında da müxtəlif sosial zümrələri təmsil edən obrazlar müsbət və mənfi qəhrəmanlar bölgüsünə yerləşdirilərək, mahiyyətcə *«ictimai aşağılar»* və *«ictimai yuxarılar»* kontekstini yenidən önə çıxarır. Düşünürük ki, alimin Sabir satirasının sosial məzmununda *«fəhlənin, kəndlinin mənəvi-əxlaqi bir hərəkət səviyyəsində dövrün şüur intibahında kəsb etdiyi ilkin mütəşəkkillik»*dən söz açmasını, burjuaziyadan isə *«eyni bir ictimai ölüm və matəm mahnısı oxuyanların «vahid xoru» kimi yer almasını önə çəkməsi (Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. s.367-368) böyük şairin milli intibahı milli birlik şəklində təsəvvür etməsi həqiqətini yetərincə kölgədə qoyur»* **(səh.45-46).**

Təfsirdə polemik ruh o qədər güclüdür ki, tərəflər arasında qarşı-qarşıya gələn fikirlər o qədər aydındır ki, hətta cüzi müdaxiləyə belə lüzum görmürsən. O başqa məsələdir ki, tərəflərdən birinin ideoloji dayağı sökülmüş, digərinin fikir imkanları genişlənmişdir. Təyyar Salamoğlu çağdaş mühitin təmsilçisidir. Onun dayağı siyasi ideologiya deyil, mənəvi ideologiyadır. Bu ideologiya mənəvi istinadgahdır. Şübhəsiz, tənqidçi düzgün müşahidə edir ki, sələfi Y.Qarayev millət anlayışını «xalqı» əvəz edən ifadə kimi işlətməklə mexaniki dəyişikliyin gətirdiyi təskinliklə kifayətlənib.

Yaşar Qarayev dövrünün övladı idi. Qüdrətli mütəfəkkir kimi mövcud qəfəsin imkanları ilə hava ala bilirdi. O dünyadan köçəndə Azərbaycanın müstəqillik qatarı kifayət qədər yola rəvan ola bilmişdi. Və bunu Y.Qarayev də görürdü. Onun əsərləri üzərində apardığı redaktələr də bunu təsdiq edir. Ancaq o zaman hələ ki, sahibkarlar - pullular öz imkanlarını qədərincə göstərə bilmirdilər. Yeni inqilab dalğası, hadisələrin geriyə dönüşü təhlükəsi onları qorxudurdu. İndi isə yeni təməllər üzərində sahibkarlıq fəaliyyətini qura bilmiş yeni sahikarlar nəsli formalaşıb. Və cəmiyyətin siyasi rıçaqlarına da nəzarət etmək gücündədirlər. Məmur elitasının çox böyük qismi və demək, siyasi *«portfellərin»* çoxu, milli məclisin əksər kürsüləri onların nəzarətindədir. Oğurluq və korrupsiya ilə pul-yatırım sahibi olmuş qorxaq sahibkarların yerini ümumdünya biznes ənənələrini mənimsəmiş böyük biznesmenlər nəsli artıq vətən idealının da nə demək olduğunu, güclü Vətənin sayəsində onlar gəlirlərini getgedə artırmağın mümkünlüyünü yaxşı başa düşürlər. Azad Bazar mühitində onların imkanları, iş yeri, cəmiyyətin iqtisadi təminatı deməkdir. Bu gün milləti bir tam kimi görmək imkanı var. Baxmayaraq ki, bu millət ağacının bir çox budaqlarına - yarpaqlarına münbit qida yetərincə çatmır. Estetik düşüncə bu tarazlığı pozan amilləri, səbəbləri apayır, tənqid edir. Hətta kəskin ifşadan da söhbət gedə bilər. Bu o demək deyil ki, millət iki ayrı sinifdən ibarətdir. Bu gün də hər hansı bir tənqidçi sovet bölgüsünün təsiri ilə ifşanın ölüm saçan gücünü təqdir elə bilər. Amma onun siyasi dayağı olmayacaq. Çünki təsir imkanları bazarın tərəfindədir.

(Davamı var)

Əli Rza XƏLƏFLİ